# İmam Hüseynin (ə)

hərkatının əbədiləşməsi
və fərqli səbəbləri

**Müqəddəs Hüseyniyyə astanası**
Məlumat bölməsi/ Beynəlxalq məlumat şöbəsi

**Hazırladı/**
Sabah at-Taliqani

**Dizayner/**
Möhsin Məaş

**Birinci buraxılış 2015**

*“Ən qısa yolla  kəramətə nail olub azad yaşamaq üçün, zülmün qarşını alıb və sapqınlıqları  aradan qaldırmaq gərəkdir.”*

*“ İmam Hüseyn əleyhissalam”*

## İmam Hüseynin (ə) hərəkatının əbədiləşmə amilləri

Çoxları belə düşünürlər ki, tarix bir həyat kimi dövr edib təkrarən  yenidən qayıdır. Lakin diqqəti cəlb edən məsələ isə, hər dəfə qayıtdıqda keçən mərhələrdən fərqli olaraq, cəmiyyətin fikrinin inkişafına,   strukturun dəyişilməsinə yeni hədəf və əlamətlərlə mühitə təsir bağışlayan bir həyat bəxş edir. Hər hansı bir tarixi hadisə təkrar olarsa, ümumən özündən əvvəliki hadisədən çox fərqli şəkildə olur. Elə ki, bəzi hadisələr uzun surən  strategiya meydana gətirir. Bu kimi hadisəyə misal olaraq, imam Hüseynin (ə) hərəkatı bir nümunədir.

İmam Hüseynin (ə) hərəkatının yaşamasına və min döryüz il diri qalmasına səbəb olan önəmli amillərdən biri də, islamın sarsılmaz şəxsiyyətləri Rəsulullahın (s) səhabələri və İmam Əli (ə) ibn Əbutalibin davamçıları  bu hərəkatın  iştirakçıları olmuşlar. Din uğrunda yeni bir mövqey seçərək İmam Hüseynin (ə) bayrağı altına toplaşıb, bəni Üməyyənin azmış və bidət dolu fikirləri qarşısında dayana

bilmişlər.

Digər bir tərəfdən bu hərəkatın daimi yaşamasına mühum xarakter verən qlobal ölçü;bu hərəkatın müəyyən bir xalq və zamana məxsus olmamışdır.  Əksinə olaraq bu hərəkat hər zaman və məkan üçün insanlığa təkan verən əsas prinsipləri müəyyən etmişdir. Bu hadisənin uzun surməsi və yeni bir unsur kimi yaşaması vəbütün itki və sapqınlığdan qorunmasına səbəb, bu hadisəni vüsətlə əhatə edən  xüsusi bir  zaman ölçüsündə baş verməsi idi.

Buna görə, bütün dünya bu gün imam Hüseynin (ə) nuruna əvvəlki dövlərdən daha çox ehtiyacları var. Çünki, bu günün cahiliyyəti  keçmişki cahiliyyətdən daha şiddətlidir. Keçmişə nisbətdə hər tərəfli olaraq müasir texnelogiya ilə təchiz edlimiş və silahli öldürücü vasitələrlə hərəkət etməkdədir.

Yeni nəslin qarşılaşdığı döyüşlər, fəsadın, eləcə də zülmün bütün dərəcələrini əhatə

edərək, müxtəlif səviyyələrdə insan hüquqların pozulmasına və ekstremizm şəklində terrorun güclənməsinə səbəb olmuşdur. Bu döyüşlərin əsas məqsədi, İslamın gətirdiyi insanlıq anlayışının məzmununu müxtəlif bəhanələr və səbəblərlə boşa çıxarmaq idi.

Lakin imam Hüseyinin (ə) gətirdiyi hərakatın əsas hədəfləri tam fərqli və güclü təsirə səbəb olaraq, beynəlqxalq hərəkat kimi bir çox planlar daşımaqla bütün dünya aləmində yeniliyə doğru bir təkan vermişdir. Çünki, bu hərəkat dinin dəyərli hədəflərini qoruyaraq fədakarlıgın ən ali mənasında, mal və canını qurban edərək yaşayışın davamlı və sabit olmasını təmin etmək üçün nəzərdə tutulmuşdur.

**İmam Hüseynin (ə) əbədi hərəkatının hədəfləri özünü aşagıdakı səbəblərdə təmsil edir:**

1- İmam xüsusi olaraq vurğulamaq istəmişdir ki,hənif olan İslam dini, bütün ixtilafların

aradan qalxması üçün insanları son ana qədər qeyri-zorakarlıq və dialiq şəklində həllinə dəvət etmişdir. Necə ki, imam Hüseyn (ə) İraqa daxil olan vaxtdan şəhadətinin son anına qədər, doyüşə başlamamışdan öncə, onlara nəsihət edərək öz elçiləri vasitəsi ilə xəbərdarlıq göndərərək hətta düşmənlər deməsin ki, biz dərk etmədən və ya bilmədən bu işə daxil olub Peyğəmbər ailəsinə qarşı mübarizəyə qalxdıq.

2- Qarşı tərəfin təcavuzu açıq-aydın olsada belə, imam Hüseyinin (ə) hərəkatı qeyri-təcavuz xarakteri daşıyaraq pis davranışlardan çəkinmə prinsipini müəyyən etmişdir. Onun bu xarakteri Hur ibn Riyahinin imamın qoşununa qoşulmazdan öncə özünü tam əks etdirir. Elə ki O, Yəzidin və Ömər ibn Sədin əmrinə əsasən öz qoşunu ilə İmam Hüseynin (ə) qarşısını almaq üçün çıxarkən, susuzluq ona və qoşununa güclü təsir qoyub onların həlak olmasına səbəb olan bir vaxta, imam və onun tərəfdarları onlara və atlarına su verərək onları xilas etmişlər. Baxmayar ki, imam öz elmi ilə yəqin edirdi ki, bunlar səhərisi gün

Ona qarşı  atları və qılıncları ilə vuruşanlardan olacaqlar.

3- İmam Hüseynin (ə) bu hərəkatı xüsusi olaraq  bu ifadəni vurğulamışdır: “Yer uzu höccətsiz ola bilməz”. Çünki, insanların idarə edilməsi və ölkələri möhkəmləndirb dini qayda-qanunlarla muhafizə etmək məhz o höccətin öhdəsinə düşür. Necə ki Allah-təala dagları yeri qorumaq üçün bir sütün qərar vermişdirsə, həmçinin imamıda insanların sabitliyi üçün seçmişdir. İmam Hüseynin (ə) islahat hərəkatının əhəmiyyəti burada özünü əks etdirik ki, Bəni Üməyyənin dinin qlabal məsələlərini  aradan apardığı və fəsadın yaydığı bir zamanda bunun müalicəsi yalnız belə bir qiymətli hərəkatla əvəz olunmalı idi. İmam öz mübarək canını və Muhəmməd sələllahu əleyhi və alihin övladları sayılan ailəsi ilə birlikdə dinin dirçəlişi və güclənməsi üçün belə bir xüsusi addımı atmışdır. Baxmayaraq ki,  bu hərəkat onların canlarının fəda olması ilə  nəticələnsə də, insanlığın parlaq təməlini yenidən qaytarıb İslamın gedişatını gücləndirdilər. Əhli beyt

davamçılarından olan müsəlmanlar yer üzərində ağır anlar yaşanan hadisələrə təsəlli olaraq "Hüseyn mərasimləri" ünvanı altında məclislər təşkil edərək, bu hərəkatın ruhunun qoruması uğrundada böyük əhəmmiyyətə malik ola bilmişlər. Elə ki, 14 əsrdən başlayaraq Aşura mərasimlərini hər il yerinə yetirməklə həmin hərəkata elə bir əzəmət bəxş etmişlər ki, heç vaxt və heç zaman sönməyəcəkdir.

**İmam Hüseyn (ə) və insan kəraməti**

İlkin baxışda bəziləri təssəvür edirlər ki, Allah peyğəmbərinin nəvəsi İmam Hüseyn ibn Əli ibn Əbu Talib və ibn Fatimə bint Rəsulullahın (s) övladı hicrətin 61-ci ili Aşurada Kərbəla səhrasında ölmüşdür. Lakin biraz fikirləşən və düşünən hər hansı bir şəxs, dərk edər ki, Hüseyn (ə) ölüm üçün yox həyat üçündür. Məgər Allah əzzə və cəll öz kitabında buyurmamışdır ki: "Ey iman gətirənlər! Peyğəmbər sizi, sizləri dirildəcək bir şeyə (imana, haqqa) dəvət etdiyi zaman Allahın və Onun Peyğəmbərinin dəvətini qəbul edin.

Bilin ki, Allah insanla onun qəlbi arasına girər (insanın bütün varlığına hakim olar; Allah ürəklərdən keçən hər şeyi bilir, bütün ürəklərin ixtiyarı da Onun əlindədir) və siz axırda Onun hüzuruna cəm ediləcəksiniz!"İmam Hüseyn (ə) Rəsulullahın (s) özüdür.O  həzrət öz hədisində belə buyurmuşdur: "Hüseyn məndən məndə Hüseyndənəm". Bu o dedməkdir ki, Hüseynin (ə) hərəkatı və fədəkarlığı Rəsulullahın (s) dini üçün olmuşdur.Bu görə O, ölüm üçün yox həyat üçündür. Çünki, kəramətsiz yaşayan  hər bir insan və xalq ölüdür!

Belə bir sual yarana bilər ki, kəramətin ölçüsü nədir?
Kəramət üç dəyərlə ölçülə bilər:
1- Azadlıq
2- Müsavat
3- İxtiyar
Əgər bir insanın azadlığı olmasa, necə də fərqli yaşamış olsa belə, o kəramətsiz insan sayılır.Həmçinin, ixtiyarı əlində olmayan insan kəramətsiz bir insandır.İslam ümməti elə bir

dövr yaşamışdır ki, Yezid kimi bir üsyançı onlara hakim olaraq öz kəramətini itirmişlər. Çünki, öz azadlığını itirmiş xalq, nə qədər də fərli yaşasa, onunla yanaşı öz ixtiyarını itirmiş olur. İnsana dəyər verən və onu digər məxluqatlardan seçən də, məhz onun ixtiyarıdır.

İmam Əli ibn Əbutalib doğru deyibdir. Fasiq bir şəxsin ümmətə başçılıq edəcəyi barədə belə buyurmuşdu: " Bu ümmətin işi ən səfih və facir insanın əlinə keçməsinə kədərlənirəm. Çünki, o Allahın malını öz mülkü, bəndələrini özünə kölə, fasiqləri özünə dost və yaxşılara qarşı düşmən kəsilər".
Bunun üçün imam Hüseyn (ə) öz bütün var gücünü toplayaraq ümməti bu xətərdən qoruyub o vaxtın zalım və azmış hakimiyyətinə qarşı insanları diqqətli olmağa çağırmışdır. İmam öz hərəkatı ilə insanları oyadıb onlara kəramətlə yaşamağı öyrətdi. Çünki yuxarıda qeyd etdiyimiz o üç şeyi insanlara xatırlatdı. Xalq yenidən daha belə bir halla rastlaşmasın deyə, imam belə bir

hərakatı həyata keçirtdi. Bu səbəbdən:

1- İmam heç kimi nə o hakimiyyətə qarşı çıxmağı, nə də özünə beyət etməyiməcbur edtmədi. Sadəcə imam məsələyə aydınlıq gətirib bütün həqiqəti aşkar edti. Heç kimi o hakimiyyətə qarşı terror aktı və ya hər hansı bir hərakata dəvət etmədi. İmam buyurmuşdur: "Məgər görmürsüz ki, haqqa əməl edən, haramdan çəkinən yoxdur. Allahla görüş üçün rəğbət bəsləyən mömin varmı? Mən ölümü səadət, zalımlarla yaşamagı isə zillət görürəm"
2- İmam Hüseyn (ə), öz yaxınlarını və əhli beytini özü ilə Kərbəla çölünə aparmamışdan öncə onlara azadlıq və tam ixtiyar verdi. Heç vaxt onları məcbur edib onunla getməyi tələb etmədi. Onların qənaətə çatmadığı bir şeyi onlardan istəməmişdir. Buna misal, Məkkədən çıxdıqdan sonra Ona qoşulan müsəlmanlara bütün gedişatı izah edərək, qarşıda Onu necə bir ordu ilə rastlaşacağını belə onlara xəbər verdi. İmam istədi ki, qoy insanlar öz azadlıq və ixtiyarları ilə hərəkət etsinlər. Çünki, imam tərəddüd içərisində və

ya qorxaq bir şəxsı yaxut da nə üçün və hara gedəcəyini bilməyən birini özü ilə vuruşmaga aparmazdı. Küfəyə göndərdiyi Müslim ibn Əqilin şəhadət xəbəri Ona Kərbəlaya tərəf gələrkən çatdığı an, bütün əshablarını toplayıb bu hadisədən onları da xəbərdar etdi. Bir an belə bunu hadisəni eşidib onu tək qayacağından qorxmadı. Çünki, imam onlara bildirmək istədi ki, onunla qalan insanın başına nələr gələcəyinidən xəbərdar olmalıdır. İmam, axirətini düşünməyən vı dünyaya tamahı olan bir şəxsə ehtiyac dumurdu. Yaxut da qorxaq və əqidəsi zəif olan şəxs də ona lazim deyildir. Bunun üçün onları bir yerə toplayıb dedi: “Başlayıram mehriban və rəhimli Allahın adı ilə! Artıq Müslim ibn Əqilin, Hani ibn Urvə və Abdullah ibn Yəqtirin şəhadət xəbəri gəlib mənə çatdı! Bizim tərəfdarlarımız bizi xar etdilər. Sizdən hər kimi ayrılıb getmək istəyirsə getsin! Mühərəmin onuncu axşamı yenidən İmam Hüseyn (ə) öz əshablarını toplayıb ölümü və ya yaşamağı seçməyi onlara təklif edib hərənin öz ixtiyari ilə hərəkət eməsini tələb

etdi.
İmam Hüseyn (ə) onlara belə buyurdu: “Allah gözəl həmd və səna edirəm! İstər çətinlikdə, istərsə də asanlıqda ona həmd olsun! Allahım sənə həmd edirəm ki, nübüvvətlə bizi kəramət sahibi edib, Quranı bizə öyrətdin! Bizə dinimizə yiyələnməyə idrak verib, bizim üçün göz,qualq və qəlb qərar verdin! Həmd olsun ki, bizi sənə şərik qoşanlardan etmədin! İlahi səni şahid tuturam ki, mən öz əsahblarımdan ən vəfalı və xeyirlisini görmədim! Öz Əhli beytim kimi üstün və mənə dayaq olanı tapmadım! Allah sizə ən gözəl nemət bəxş etsin! Mən sabah düşmənlərimin mənimlə üz-üzə gəlməsini görürəm! İstəyirəm ki, hamınız gedəsiz! Mənim sizdən heç bir istəyim yoxdu! Qarşınıza gecənin qaranlıq zülməti gəlir buradan getməyiniz üçün böyük fürsət var! Hər kəs öz yaxının əlindən yapşıb, gecənin zülmət çağında hərəkət edərək burdan uzaqlaşsın. Bəlkə Allah sizin üçün bir qapı aça! Bunlar məni tələb edirlər sizi istəməzlər”

3- İmam Hüseyn (ə) bütün islam öklələrində yaşan müsəlmanlarla məktublaşmadı. Yalnız

ilkin mərhələdə Yəzidə beyət etməyi inkar edib, şəri baxımdan sapğın hakimiyyəti qəbul etmədi. Sonradan Küfə əhli olan müsəlmanlar Onu dəvət edərək məktublar yazmağa başladılar. Onların istəyi bu idi ki, düzgün və haqq yola dəvət edən bir rəhbərləri olsun. Bunla belə imam Hüseyn ibn Əli (ə) höccəti tamamlamadan hec bir şəxsi o dövrün hakimlərinə qarşı zidd mövqey seçməyi və mübarizəyə qalxmaga əmr etmədi. Bu səbəbdən azmış və saxtakar hakim sayılan Yezid ibn Müaviyyəyə beyəti inkar edib, yalnız xalqa baş verən həqiqətləri açıqladı. Mədinədə İmam Hüseyn (ə) xitab edərək belə buyurmuşdur:

“Mən nübuvvət evinin əhli-beyti, risalət mədəni,mələkərin toplaşdığı bir şəxsəm. Bizim vasitəmizlə Allah hər şeyi başlayıb və bizimlə xətm edəcək. Yəzid fasiq, facir, şərabxor, haram edilmiş nəfsi öldürəndir. Açıq aşkar fisq və fücür törədənə mənim kimi birisi ona beyət etməz.! “Mən əyləncə, fəsad və zülm törətmək üçün çıxmadım! Yalnız ceddimin ümmətini islah etmək üçün çıxdım.

İstəyirəm ki, yaxşılığa dəvət edib pisliklərdən çəkindirim! Hər kim məni qəbul etmiş olsa, haqqı qəbul edər! Allah təala haqq sahibidir. Hər kim məni inkar etsə, o vaxta kimi səbr edərəm ki, Allah haqq olaraq mənimlə sizin aranızda bir hökm verə! Çünkı, həqiqətən O, daha xeyirli hökm edəndir." Kərbəla çölünə yetişməmişdən öncə, Hur ibn Riyahinin qoşunu ilə qarşılaşdıqda,onlara xitab edərək zalım hakimiyyətə beyət etməməyinin sirrini belə açıqlamışdır:

"Ey insanlar! Rəsulullah(s) belə buyurmuşdur: Kim əgər zalım bir hakimi Allahın halalını haram, əhdini pozan, Rəsulullahın sünnəsinə müxalif olan, xalqla ədavət və üsyanla davrandığını görüb, sözü və ya əməli ilə onu dəyişməyə cəhd etməsə, Allah özünə haqq bilib ki, o insanı da həmin zalımla birgə edər. Məgər görmürsüz bunlar şeytana itaət edib, rəhmanın itaətindən boyun qaçırıblar. Fəsad törədib həddi aşırlar. Qənimətləri ələ keçirib, Allahn halalını haram, haramını halal etmişlər. Buna görə mən haqlıyam ki müabrizəyə qalxam. "

4- Həmçinin imam Hüseyn (ə) insanlara heç vaxt özünə rəgbət bəsləməyi və ya onlara hədə-qorxu gəlməyi göstərmədi. Ona beyət etmək üçün müsəlmanları dini terror aktına tərəf yönəltmədi. Həmçinin zalım hakimiyyətin beyətini qəbul edən bir şəxsi ölümlə hədələməyib ona qarşı suyi qəst törətməmişdir!
İmam Hüseyn (ə) başqa bir xitabında xalqa belə müraciət etmişdir: " Həqiqətən atası məlum olmayan bir şəxsin oğlu iki iş arasında heyrət içindədir. Gah hədə-qorxu, gah da təsəlli verir! Lakin zillət bizdən uzaqdır!
İmamın düşüncəsinə əsasən, zalım və fasiq sultana beyət etmək, insan kəramətinə zidd olan bir məsələdir.Demək olar ki, belə bir beyət zillətdir.Onun üçün izzətlə ölməyi zillətlə yaşamaqdan üstün hesab etmişdir.

5- İmam Hüseyn (ə) Kərbələ səhrasını - hicrətin 61-ci ili Aşurada- cənnətin bir güşəsinə çevirərkən, öz əhli beyit və səhabələri arasında heç bir fərq qoymadı.

Hamısına eyni gözlə baxırdı. Hətta ən qatı düşməni onun qafiləsinə qoşulmağına belə mane olmadı. Neçə ki,  Hur şərafətli və kəramətli ölümü üstün bilib imama tərəf keçib ordusuna qoşulmaq istədikdə,  imam onun qarşısını almadı. Ona əbədi səadətə qovuşmaga fürsət verdi. Baxmayar ki, O zalım hakimin ən etimad bəslədiyi bir şəxs idi. İmam Hüseynə (ə) böyük zərbə vursada,  heç də imam ondan intiqam almaq fikrinə düşmədi. Belə bir məsəl var: "Hər şey əməllərin sonu və nəticəsi ilə qiymətləndirilir."

6- İmam Hüseyn (ə) heç kimdən  onun taqəti çatmadığı miqdardan artıq bir şeyi tələb etmədi. Çünki belə bir ölçü var: "İnsanların gücü çatdığı qədər onlardan tələb et"  Bunun üçün onlardan artıq tələb etmək onlara zülm etməkdir. İmam onlara höccəti tamamladığı vaxt insanlardan öz istək və iradələrinin miqdarından artıq bacarmadıqlarını istəməmişdir.

**Beyət  bir məsuliyyət  və əhddir**

Yəzid ibn Müaviyə hakimiyyəti ələ aldığı andan istəyirdi ki, İmam Hüseyndən (ə) zor güclə beyət alsın.Çünki, imamın cəmiyyət arasındakı məqamını gözəl bilirdi.Düşünürdü ki, imamın ona beyət etməməsi nə deməkdir. Əgər  imam ona beyət etməsə, bir çoxları da ona tabe olaraq Yəzidin beyətdən imtina edəcəklər. Yeni hakimiyyətə rəğbət bəsləməzlər.  Buna görə Yəzid bütün bunlara tab gətirmədi.  O bir çox İslam ölkərindən hakimiyyəti qeyr-şəri yolla ələ almışdır. Yəzid özünün  Mədinədə təyin  etdiyi valisi Vəlid ibn Utbəyə əmr etdi ki, İmam Hüseyndən beyət alsın. Bir an olsabelə, bu işdə gecikməsin və ondan möhlətdə istəməsin. Lakin imam Hüseyn (ə) bizə necə yaşamağı öyrətdi.İmamın nəzərincə, beyət agızda və dildə deyiləsi şey deyil, əksinə məsuliyyət və əhdir. Ona görə  beyəti inkar etdi.  Beyət edən şəxs  əhd edir ki, həmən şəxsin yolu və əmrləri ilə hərəkət edəcək. Beyət edən şəxsə qarşı heç zaman çıxmaq olmaz. Həmin hakim dəyişməyincə ona xəyanət etmək olmaz!

Bütün bunları öz gözünün önünə alıb (Allaha qarşı usyan edib, məxluqata itaət etmək olmaz) ifadəsini icra etdi.
Bu səbəbdən İmam Hüseyn (ə) müsəlmanlara xoşbəxt həyat tərzi yaşamagı çatdırmaq üçün  Yəzidəbeyəti inkar edib qəbul etmədi. İmam  bununla istədi ki, insanlara beyətin nə olduğunu çatdirsin.
Nə üçün Yəzid kimi birisinə beyət etmədi?Xalqa öz höccətini tamamlayaraq beyət mahiyətinin nədən ibatrət olduğunu öyrətdi. Bu məsələyə cahil vəsavadsız yanaşmasınlar! İstər Yəzidə beyət etsinlər, istərsə də inkar! İmam insanlara həyatın mənasanı başa salmaq istədi.İnsan necə edə bilər ki, kəramətli həyat yaşasın?Gərək beyət özüdə kəramət və əhdipeyman üzərində qurula ki,insanlar düzgün yaşaya bilsinlər.
İmam Hüseyn (ə) Yəzidin Mədinədə olan valisinə belə cavab verdi: “Mənim kimi birisi gizli beyət etməz,  Əgər insanlar üçün çağırışa çıxsam, onları beyətə dəvət etməyim və ya onların məni dəvət etmələri mənim üçün eynidir. Məndən zor güclə  heç  kim  beyət ala

bilməz.”

O zamanın hakimiyyəti imam Hüseyni (ə) beyət etməyə məcbur etdiyi vaxt, imama vacib idi ki, öz mövqeyini açıq şəkildə bildirsin. Onun üçün buyururdu: Ey əmir! Biz nübəvvət evinin ailəsiyik! Risalət mədəniyik! Mələklərin qaynayıb-qarışdıgı kimsələrik! Bizimlə Allah hər şeyi başlayıb, bizimlə də xətm edəcək! Yəzid fasiqin və facirin birisidir! Şərab içən, möhtərəm nəfsi öldürən və açıq-aşkar fisqi-fücürla məşğul olanın birisidir! Mənim kimi birisi ona beyət etməz!

**Yaşamaq o deməkdir ki, məsuliyyətdən böyun qaçırmayasan**

İmam Hüseyn (ə) İraqa çıxmaq istədikdə, xüsusilə də Küfəyə gedərkən bir çox insanlar onun qarşısını almaq istədilər. Belə qənaətə gəldilər ki, baş götürüb Yəmənə və hər hansı başqa bir ölkəyə getsin ya da quru səhrada qalıb özünü hakimiyətə təslim etsin. Əgər imamın hədəfi xalq üçün yaşayışı təmin etmək olmasaydı, nə çox yer var idi ki, öz canın qurtarmaq üçün baş götürüb hər hansı

bir ölkəyə getsin. Lakin,  imam bütün bu hadisələrlə ona görə uzləşdi ki, insanlara xoşbəxt və dəyərli həyat yaşamağı öyrətsin. Bunun üçün Ondan   bu işdən boyun qaçırmağı tələb etsələr də belə, imam hamısını rədd etdi.

Bununla imam bizə zülmün önündə dayanıb bütün azğınlıqların qarşısını almağı və kəramətlə yaşamağa necə nail olmağı öyrətdi. Bizə bildir ki, belə bir zülmün önündən qaçmaq özüdə ölümdür.Şərafətli insanlar ona razı olmazlar.

İmam Hüseyni (ə) mübarizədən çəkinməyə tövsiyyə edən şəxslər belə iddia edirdilər;“Ona məktub yazanlar və onu dəvət edənlər, heç də əhdə vəfa edənlər deyildir. Çünki onların ata və babaları da atası  imam Əlinin (ə) və babası Rəsulullahın  (s) beyətini sındran şəxslər olub”.

Bütün bunlara baxmayaraq, İmam Hüseyn (ə) öz mövqeyini dəyişmədən, böyük bir məsuliyyəti öhdəsinə alıb, onların atası və ya babasının beyətdən böyun qaçırmağını nəzərə almadan bu işə əl atdı. Çünki,  Quranı-kərim

də buna işarə edərək buyurmuşdur:“Heç kim başqasının yükünü daşımaz.” İmamın nəzərində hər kəs öz qarşısında məsuliyyəti bir anlıq olsa belə təsəvvür edib  və yaranmış səbəblərə görə  öz mövqeyini təyin etməlidir! Əgər məsuliyyətdən böyun qaçırsa, günah edib axirətdə onun cavabını vercəkdir.İstər  qorxa, istərsə də şəkkdə ola.

**Kərbəlaya bir baxış!**

Rəsulullah (s) və bütün imamların diqqət mərkəzi yalnız cənnət cavanlarının ağası imam Hüseyn ibn Əli ibn Fatimə əlehimussalamın üzərində olmuşlar. Onu hicrətin 61-ci ili Kərbəlada, Məhərrəmin 10-nu Yəzid kimi mucrim bir şəxsin əli ilə şəhadətə yetişməsi onlara məlum idi. İmam Hüseyn (ə) yeganə bir şəxsdir ki, doğulanda  Rəsulullah (s) ilk an onu qucağına alıb sevinsə də, sonra Ona ağlamışdır. Bunula onun başına gələn bütün müsibətlərdən xəbər verib, onun gələcək həyatının xəritəsini çəkib xalqa çatdırmaq istəmişdir ki, imam Hüseynin nələr yaşayacağını xalq qabaqcadan  bilsin.

Tarix kitabları qabaqcadan Kərbəla vaqiəsinin baş verəcəyi haqda çoxlu sübütlar qeyd etmişdir.Həmçinin o barədə Rəsulullahdan (s) bir çox hədislərlər mövcüddür. Bu hədisləri Mustədrək Səhihəyn, Tarix İbn Əsakir, Məqtəl -Xəvarizmi, Təbəri, Bəlazəri, Təbərani, İbn Səid, Zəhəbi, Heysəmi, Əsqəlani, İbn Kəsir, Məcməuz -Zəvaid, Fusulul-Muhimmə, Rəzul- Nəzir, Səvaiqul-Muhriqə, Kənzul-Ummal, Xəsaisul-Kəbir, Məsirul-Əhzan və başqa-başqa əsərlərdə, o cümlədən məsum imamlarımızdan nəql olunan bir çox hədislər, bu tarix haqda qabaqcadan açıqlama vermişlər. Həmçinin, Kərbəla hadisəsindən sonra da imamlarımız bu hadisəyə çox önəm verərək ona təkidlə yanaşmışlar. Bu ehtimamın ən bariz nümunəsi, digər imamların məşhədlərinin ziyarəti haqda söhbət açarkən, İmam Hüseynin (ə) ziyarəti barəsində söylədikləri bir çox hədislər bir daha bu ziyarətin hədsiz dərəcədə savab olduğunu açıqlamışdır. Sanki, bizə çatdırmaq istədikləri budur ki, imam Hüseyini (ə) ziyarət etmədən başqa imamları ziyarət etmək, naqis

sayılır.

Çünki, imam Hüseyn (ə) əhlibeyt üçün, qızıla oxşar bir ölçüdür. Məsumlardan nəql olunan kəlamların bir çoxunda belə buyrulur: "Biz hamımız nicat gəmisiyik! Lakin cəddimiz Hüseynin gəmisi daha genişdir. Dəniz dalğalarını sürətlə ötüb hərəkət edər" Bu heç də qəribə və düşünülməz ifadə deyildir. Bu kimi ehtimamın sirri və fəlsəfəsi var. Müsəlmanların tarixində çox xeyirxah insanlar şəhid olmuşlar. Həmçinin, onların tarixində çoxlu əzəmətli günlər və hadisələr olmuşdur. Məhz nə üçün yalnız imam Hüseynin (ə) əzadarlığına çoxlu diqqət və ehtimam göstərmişlər? Bunun bir sirri və fəlsəfəsi olmalıdır!

Bu sirrin cavabını Əhli beytin imam Hüseynə (ə) göstərən diqqət və qaygısının nəticəsində Onun haqqında söylədikləri ifadələrdə müşahidə etmək olar. İmam Sadiq (ə) buyurub: " Hər kim Onun haqqını bilərək onu ziyarət etsə… ". Yəni, Kərbəlada Aşura səhnəsində imam Hüseyinin (ə) haqq üzərində mübarizəsi daha da aydın olur.Haqq olaraq Yəzid kimi

bir usyançının beyətini inkar edib, ona qarşı mübarizəyə qalxdı. Zülmün qarşısında haqla dayanıb, haqqın heç vaxt təslim olmamasını sübüt etdi. Haqq olaraq islahat aparmağı və əmr bil-məruf edib, babası Rəsulullahın (ə) və atası imam Əlinin (ə) haqq yolunu davam etdi. Kərbəlada şəhid olana qədər hər bir addımında haqqın ölçüsü ilə hərəkət edib bir daha bu ehtimamnın siririni açıqladı.

Əgər hər kim imam Hüseyinin (ə) hərəkatına şəkk və şübhə ilə yanaşırsa, deməli onun haqqını bilməmişdir. Belə bir halda o şəxs Kərbəla hadisəsinə ehtimamla yanaşmagı bacarmaz. Buna görə də bu hadisədən agah olmadan onun nə zaman ötüb keçdiyini belə bilməzlər.

İmam Hüseynin (ə) haqlı olmasını bilmək, Kərbələ hadisəsinə göstərilən ehtimamdan irəli gəlir.Onun hər bir haqqına şəkklə yanaşmaq o hadisyə qarşı cahilliyin nümunəsidir.Bu dövrdə də, imam Hüseynlə (ə) mübarizə edən şəxslər, Kərbəla hadisəsinə qarşı şübhələr ortaya qoyaraq Aşura mərasimlərinə istehza məqsədi ilə ona yanaşmışlar. Hətta belə

iddialara qalxmışlar ki, imam Yəzid kimi birisinə razı olub beyət etmək üçün Küfəyə uz tutdu, lakin babasının qılıncı ilə öldürüldü. Bütün bunlar məqsədyönlü olaraq insanları şəkkşübhə altına salmaq üçün nəzərdə tutulmuşdur. Çünki, imam Hüseynə qarşı şübhəsi olan, Kərbəla hadisəsinə heçdə diqqətlə yanaşmaz. Bu hadisənin dəyərini və qiymətini bilməyən şəxs, təbii ki, imam Hüseynin (ə) hərəkatina şübhə ilə yanaşar.

**Hamişlər:**

1-Nəzər Heydər: İnsan kəramətinin üçlüyü. Son vaxtlar yazdığı məqalərədən

2- Sabah Talqani: Mlumat birosu şəbəksəinin məqaləsi